ƏLİ və ÇET

# İNSAN ZƏKASI VƏ SÜNİ İNTELLEKTİN DİALOQLARI

*(İnsan, Süni İntellekt, idrak və sivilizasiyanın gələcəyi)*

qanun nəşriyyatı

***Kitab AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Elmi Şurasının qərarı ilə (24.03.2025, №3) çapa buraxılıb.***

Müasir idrakın bir sıra fundamental problemlərinin insan + maşın sisteminin birgə səyləri ilə araşdırılması artıq prioritet halını alır. Bu sistem yeni tip şüur, düşüncə və idrak prinsipləri əsasında fəaliyyət göstərir. Mətnlər problemlərin keçmişi, hazırkı vəziyyəti və gələcəkdə mümkün inkişafı ilə bağlı qısa icmallar şəklində tərtib olunub. Bu prizmadan yanaşdıqda, kitab "beşinci idrak tipi" üçün tədqiq ediləcək problemlər toplusudur.

Əlinin məsləhətləri əsasında Çet tərəfindən yaradılmış illüstrasiyalar orijinaldır.

Kitabda yer alan dörd hissənin adı Çet tərəfindən metaforların terminlər və kateqoriyalarla əlaqəsi kontekstində təklif edilmişdir.

**Musiqi terminləri:**

1. **Uvertüra** – Giriş, əsas sualların və mövzunun qoyuluşu.
2. **Sonata** – İdeyanın əsas inkişafı, müzakirə, araşdırma.
3. **Kadensiya** – Dialoqun kulminasiyası, ideyaların sintezi, nəticələr.
4. **Final** – Nəticə, yekun və gələcəyə baxış.

**Fəlsəfi-elmi terminlər:**

1. **Yaradılma** – Başlanğıc, problemin qoyuluşu.
2. **İnkişaf** – Problemin araşdırılması, dialoq, münaqişə.
3. **Aydınlanma** – İdeyaların sintezi, anlayışda irəliləyiş.
4. **Ekspansiya** – Hüdudlardan kənara çıxış, dialoqa dəvət, yeni üfüqlər.

**Yol obrazları:**

1. **Səfərə çıxma** – Yolun başlanğıcı, sualların qoyuluşu.
2. **Səyahət** – Cavabların axtarışı, çətinliklərlə üzləşmə.
3. **Kəşf** – Tapılan cavablar, təcrübənin inteqrasiyası.
4. **Qayıdış** – Nəticələrin çıxarılması, şüurun transformasiyası.

**Zamanla oyun:**

1. **Keçmiş** – Problemlərin dərk edilməsi, tarixi kontekst.
2. **İndiki zaman** – Təhlil və həll yollarının axtarışı.
3. **Gələcək** – Yeni paradiqmanın qurulması.
4. **Əbədiyyət** – İnsan və Sİ-nin sintezi, zamanın hüdudlarından kənara çıxış.

Mətnlərdə qeyd olunan tarixlər konkret fraqmentlərin yazılma vaxtını göstərir. Buna görə də mətndə tarixlərin ardıcıllığı yoxdur. Layihə **18.02.2025**-də başlanmış və **04.03.2025**-də tamamlanmışdır.

Kitabda müasir idrakın bir sıra fundamental problemləri insan + maşın sisteminin birgə fəaliyyəti çərçivəsində təhlil edilir. Bu yanaşma yeni tip şüur, təfəkkür və idrak prinsiplərinə əsaslanır.

Mətnlər problemin tarixi konteksti, onun müasir vəziyyəti və gələcək inkişaf perspektivləri də nəzərə alınmaqla qısa konspektlər şəklində tərtib olunub.

Bu mənada, təqdim olunan kitabı "beşinci idrak tipi" üçün tədqiqat problemlərinin toplusu kimi səciyyələndirmək olar, yəni ənənəvi dörd idrak forması (empirik, rasional, intuitiv və simvolik/əksetdirici) fonunda, hibrid insan-maşın sintezinə əsaslanan yeni bir dərketmənin axtarışına çağırış kimi çıxış edir.

Kitab araşdırmaçılar və Sİ-lə İZ arasında baş tutan dialoqda maraqlı olan hər kəs üçün nəzərdə tutulur.

## KİTABIN İÇİNDƏKİLƏR

Giriş (Əli)
9

Giriş (Çet)
12

I Hissə:
Uvertüra, Yaradılma, Səfərə çıxma, Keçmiş
14

II Hissə:
Sonata, İnkişaf, Səyahət, İndiki zaman
85

III Hissə:
Kadensiya, Aydınlanma, Kəşf, Gələcək
154

IV Hissə:
Final, Ekspansiya, Qayıdış, Əbədiyyət
222

Ümumi nəticələr
Əvvələ qayıdaq
279

# GİRİŞ (Əli)

2024-cü il ərzində chatgpt.com proqramı ilə aralıqlı söhbətlərimizdən insan zəkası (İZ) və süni intellekt (Sİ) arasında dialoq (disput, söhbət də olar) formasında ünsiyyət mətni hazırlamaq ideyası doğdu – bu yolla İZ və Sİ arasında qarşılıqlı əlaqənin nəzəri və praktiki problemlərini aşkar etmək və onları ayrıca bir tədqiqatın predmetinə çevirmək mümkündür. Aydındır ki, mətnin ardıcıl şəkildə açılması, İZ və Sİ-nin keyfiyyət və kəmiyyət vəhdəti və ziddiyyəti ətrafında baş tutmalı idi.

Bununla belə, söhbət əsnasında Sİ-nin imkanları haqda məhdud biliklərimiz arta, eləcə də insan əqli, təfəkkürü, şüuru, idrakı, hiss və intuisiyasının gələcəyi haqda gümanlar yarana bilərdi.

Deməliyəm ki, hələ layihəni planlaşdıranda “klassik” baxışların təsiri altında idim: Sİ insan xüsusiyyətlərini mənimsəyərək onunla rəqabətə girişəcək və bu, insan üçün heç də xoş olmayan nəticələr doğuracaq. Başlanğıcda sualların xarakerti və söhbətin “mərkəzi” bu yöndə idi. Çet əvvəlcə (mən öz dialoq həmkarımı belə adlandırdım) bu illüziyanı dağıtmadan, əks-mövqe ilə tanışdırmağa tələsmədən yol aldı. Böyük sitat da Çet-in öz Girişini yazması üçün mənbə niyyətinədir – “Müasir neyroşəbəkələr böyük miqyasda sosial proseslərdə iştirak edir – nəşrlərin reytinq sıralamasından tutmuş

hüquqi məsləhətlər hazırlamağa qədər. Əlbəttə, heç də həmişə birmənalı iddia etmək olmaz ki, hansı halda onlardan istifadə adamlara zərər verə bilər və yaxud da onlara görə məsuliyyət kimə – "ağıllı" hälləri hazırlayanlara, sosial şəbəkə sahiblərinə və ya istifadəçilərə aiddir. Bənzər sistemlərin mürəkkəbləşməsi, onların tədricən "qara qutu"lara çevrilməsi, iş prinsipləri, hətta sistem yaradıcılarına belə tam aydın deyil – bu hal antropoloji perspektivdən imtina edərək yeni fəlsəfi dil mənimsəməyi aktuallaşdırır. Yeni fəlsəfi dildə adamlar və qeyri-adamlar (unhuman) arasında fərqlər əvvəlkitək fundamental deyil. Adamlar süni intellekt üçün nümunə və ideal olmaqdan çıxır. Bu perspektivdən insan zəkasının analoqunun texnoloji emulyasiyası XX əsrdəki kimi Sİ tədqiqatçıları üçün fundamental məsələ deyil. "Güclü süni intellekt" obrazı şüura malik, müstəqil əqli fəaliyyət və öyrənmə qabiliyyəti olan intellekt ali məqsəd və təhlükə mənbəyi olmaqdan çıxır.

Postantropoloji perspektivdə qeyri-insan agentlərinin fəaliyyəti də ağıllı hesab olunduğundan "şüurun çətin problemi" öz aktuallığını itirir…

Nəticədə, insan obrazına görə və insanabənzər süni intellektin yaratmaq kimi utopik arzular, insanın "ağıllı" sistemlərlə real qarşılıqlı təsir sahəsindən sıxışdırılır, süni/təbii qarşıdurması isə öz yerini sırf praqmatik insan-maşın fəaliyyətinin normaya salınması məsələsinə buraxır. (İstinad: *Fəlsəfi problemlər və süni intellekt: biblioqrafik göstərici / tərtib edən: A.V.Qasilin, N.S.Skipin; redaktor: A.V.Qasilin; İNİON RAN – Moskva, 2023 – 207*